**Bələdiyyə üzvünün seçilməsi haqqında vəsiqə nümunəsinin təsdiq edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası 23 dekabr 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərinə 6\41 saylı 11 yanvar 2010-cu il tarixli qərarı ilə yekun vurmuşdur. Seçilmiş bələdiyyə üzvlərinə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində müvafiq dairə seçki komissiyaları tərəfindən bələdiyyə üzvü seçilmək haqqında vəsiqə verilməlidir. Həmin vəsiqə nümunəsi Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 242-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə bələdiyyə üzvü seçilmək haqqında vəsiqə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində dairə seçki komissiyası tərəfindən verilir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 242-ci maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r:**

1. Bələdiyyə üzvünün seçilməsi haqqında vəsiqə nümunəsi təsdiq edilsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Natiq Məmmədov

Üzvlər — Fuad Cavadov

Ramiz İbrahimov

Validə Kazımova

Qabil Orucov

Tofiq Həsənov

İlham Məmmədov

Nizami Nadirov

Tamam Cəfərova

Rövşən İsmayılov

Almas Qəhramanlı